## UNEC 95: Zaqatala filialının inkişaf perspektivləri

### 1. Konfransın haqqında qısa məlumat:

**"UNEC 95: Zaqatala filialının inkişaf perspektivləri" konfransı** təhsil və elmi-tədqiqat sahələrində mövcud vəziyyətini təhlil edərək, onun regional iqtisadiyyata töhfəsini artırmaq üçün yeni strategiyaların müəyyənləşdirilməsinə yönəlib. Konfransda müasir dövrdə ali təhsilin rolu, rəqəmsallaşma, insan kapitalının inkişafı kimi vacib mövzular müzakirə olunacaq. Konfrans regionun sosial-iqtisadi inkişafına töhfə verəcək və filialın akademik potensialını artırmaq üçün yeni əməkdaşlıq imkanlarını araşdırmaqda faydalı olacaq.

### 2. Missiya:

Konfransının missiyası, ali təhsil müəssisəsinin regional inkişafdakı rolunu gücləndirmək və onun akademik potensialını artırmaqdır. Konfrans, müasir iqtisadi çağırışlara uyğun olaraq, təhsil, elmi-tədqiqat və innovasiya sahələrində yeni trendləri müəyyənləşdirməyi, dövlət və özəl sektor nümayəndələri ilə effektiv əməkdaşlıq qurmağı hədəfləyir.

### 3. Məqsədlər:

- UNEC Zaqatala filialının inkişaf istiqamətlərini təkmilləşdirmək və təhsilin keyfiyyətini daha yüksək səviyyəyə qaldırmaq
- Regional iqtisadiyyatın tələblərinə uyğun təhsil və tədqiqat fəaliyyətlərini gücləndirmək.
- Akademik və elmi tədqiqat imkanlarını artıraraq, filialın universitet-sənaye əməkdaşlığını genişləndirmək.
- Müasir texnologiyalardan istifadə edərək tədris proseslərini daha innovativ etmək üçün yeni yanaşmaları müzakirə etmək.
- Filialın regionun sosial-iqtisadi inkişafına töhfəsini artırmaq üçün yeni əməkdaşlıq imkanlarını araşdırmaq.
- Əmək bazarının tələblərinə uyğun kadr hazırlığını optimallaşdırmaq

### 4. Konfransın istiqamətləri:

1. UNEC Zaqatala filialında təhsil keyfiyyətinin artırılması
   - Təhsil proqramlarının əmək bazarına uyğunluğu
   - Müasir tədris metodlarının tətbiqi
   - Universitetdə təhsilin rəqəmsallaşma istiqamətləri
2. UNEC Zaqatala filialının inkişafında elmi tədqiqatların rolu və inkişaf perspektivləri
   - Tədqiqat mərkəzləri və region universitetlərinin inkişafında rolu
   - Region üçün prioritet tədqiqat sahələri
3. UNEC Zaqatala filialı və regionun sosial-iqtisadi inkişafı
   - Yerli bizneslər və universitet əməkdaşlığı
   - Regionda kadr hazırlığı və savadlı kadrların regiona cəlbi
4. UNEC Zaqatala filialı məzunlarnn karyera imkanları və əmək bazarı
   - Şirkətlərlə əməkdaşlıq və təcrübə proqramları

5. UNEC Zaqatala filialının beynəlxalq əməkdaşlıq və tələbə mübadiləsi imkanları
   - Xarici universitetlərlə əlaqələrin genişləndirilməsi
   - Mübadilə proqramları
6. UNEC Zaqatala filialında sahibkarlıq mühiti və startap ekosisteminin yaradılması
   - Tələbə və məzunlar üçün biznes inkubatoru və digər innovativ layihələr
7. Dəyirmi masa: Filialın strateji inkişafı

## 5. Konfrans materiallarının tərtibi qaydası

**Mətnin yığılması:** Tezis A4 formatda, hərəfdən 2.5 sm boş qoymaqla, Times New Roman, 12 pt şriftlə, sətirarası interval 1 sm olmaqla, hər abzas üçün 1,25 sm qoyulmaqla tərtib olunmalıdır. Tezislər son qəbul tarixindən gec olmayaraq conf.zagatala@unec.edu.az elektron poçt ünvanına göndərilməlidir. Təşkilat komitəsi tərəfindən tələblərə uyğun olmayan materiallar məruzə üçün qəbul edilməyəcək.

**Məqalənin adı:** Mərkəzdən, baş hərflər böyük olmaqla, 14 şriftlə, **BOLD**

**Müəllifin adı, soyadı, atasının adı:** Mərkəzdən, 12 şriftlə, *İtalic*

**İş yeri, e-poçt ünvanı, telefon nömrəsi:** sağ tərəfdən, 12 şriftlə

**Xülasə:** tezisin yazıldığı dildə, 100-150 söz

**Açar sözlər:** 5-8 söz

**Tezisin həcmi:** (abstrakt və ədəbiyyat siyahısı da daxil olmaqla) 4-5 səhifə

**Konfransın işçi dilləri:** azərbaycan, rus və ingilis dili

**Ədəbiyyata istinad:** APA tərzinə uyğun olaraq cümlənin ortasında və ya sonunda müəllifin (və ya müəlliflərin) soyadı, nəşr tarixi göstərilməklə

Nümunə: Tək müəllif olduqda (Həsənova, 2019);
İki müəllif olduqda (Həsənova və Məmmədova, 2020);
Üç və daha artıq müəllif olduqda (Həsənova və b., 2021).

**Ədəbiyyat siyahısı:** Mətndə qeyd olunan bütün müəlliflər ədəbiyyat siyahısnda öz əksini tapmalıdır. Siyahı müəlliflərin adı ilə əlifba sırasına uyğun tərtib edilir.

Nümunə:

1. Həsənova, N. A. (2020). Regionlarda əmək bazarı ilə tədrisin əlaqələndirilməsi mexanizləri. *Sosial tədqiqatlar jurnalı, 8,* 300-320.

**Mühüm tarixlər:**

| | |
|---|---|
| Tezis və ya tam mətnin göndərilməsi üçün son tarix: | **09.05.2025** |
| Konfrans proqramının yayımlanması tarixi: | **18.05.2025** |
| Konfransın keçirilməsi tarixi: | **23.05.2025** |

**Əlaqə məlumatları:**

Telefon: 012-5-21-57
050-563-90-57
Email: conf.zagatala@unec.edu.az

**Əlavə məlumatlar:**

- Ödənişsiz iştirak;
- Əyani şəkildə və ya onlayn təqdimat imkanı;
- İştirak sertifikatı